**PRESS-RELİZ**

# Elmin İnkişafı Fondu və Thomson Reuters əməkdaşlıq çərçivəsində ölkədə elmin inkişafına öz töhfəsini verir

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF) öz əsas fəaliyyət növü olan qrant müsabiqələrinin təşkili, elmi-tədqiqat layihələrinin maliyyələşdirilməsi ilə yanaşı, ölkədə kadr hazırlığı, Azərbaycanda alınmış nəticələrin xaricdə tanıdılması, beynəlxalq əlaqələrin qurulması, elmi informasiya təminatı, elmi nəşr işinin müasir səviyyədə təşkili kimi məsələlərə də diqqət yetirir, bununla əlaqədar olaraq müxtəlif tədbirlər həyata keçirir.

2016-cı il 08 noyabr tarixində Elmin İnkişafı Fondu dünyada tanınmış Thomson Reuters şirkəti ilə birgə aşağıdakı tədbirləri təşkil edərək keçirəcək:

- Azərbaycan elmi ictimaiyyəti üçün "Web of Science" Mükafatları – 2016"nın təqdim olunması (Award Ceremony "Web of Science Awards – 2016" for Azerbaijani scientific community)

- "Azərbaycanın elmi jurnalları: beynəlxalq səviyyəyə doğru irəliləyiş" mövzusunda Seminar-təlim (Workshop "Azerbaijani scientific journals: progressing towards international levels")

Birinci tədbir çərçivəsində "əsas" və "inkişaf etməkdə olan" nominasiyaları üzrə beynəlxalq meyarlar əsas götürülməklə ən məhsuldar qurum (nüfuzlu elmi jurnallarda dərc olunmuş məqalələri və s. olan akademik, təhsil yönümlü qurumlar və digərləri) və nüfuzlu elmi jurnallar təltif olunacaq. İkinci tədbirin keçirilməsində məqsəd isə xaricdən dəvət olunmuş tanınmış ekspetlərin, "Thomson Reuters"in və EİF-in məsul əməkdaşlarının iştirakı ilə müvafiq Seminar-təlimin keçirilməsi, mövcud vəziyyətin təhlili, beynəlxalq təcrübənin öyrədilməsi, Azərbaycanda nəşr olunan elmi jurnal redaktorları və / və ya heyətinə tövsiyələrin verilməsi, müasir yanaşmaların, üsulların və vərdişlərin aşılanmasıdır. Tədbirin sonunda iştirakçılara sertifikat veriləcək.

**Elmin İnkişafı Fondunun mətbuat xidməti**